**Orucoğlu Z.** Haqq savaşımızın qəhrəman yolçusu // 525-ci qəzet. - 2025. - 28 yanvar. - **№ 15**. - S. 11.

**Müzəffər Ordumuzun şücaəti və qəhrəmanlığı sayəsində 30 ilə yaxın işğal altında qalan torpaqlarımız düşmən tapdağından azad olundu. Bu müqəddəs yolda 22 yaşında şəhidlik zirvəsinə ucalan qəhrəmanlardan biri də Cəlilabadın Bəcirəvan kəndində boya-başa çatan Ayaz Nizami oğlu Abbasovdur. Xalqımızın igid, vətənpərvər oğlu qəhrəmanlıq simvoluna çevrilib qəlblərdə özünə yuva qurdu. Dövlət tərəfindən müharibə meydanında göstərdiyi fədakarlığı "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görüldü.**

Ayaz Abbasov həyatı dərk edən gündən Vətənin daşına, torpağına, yaşadığı yurd yerinə ürəkdən sevdalanır. Həm də əxlaqı saf, əqidəsi dürüst gənc Vətən torpağının yada yurd olmağını qəbul edə bilmirdi. Odur ki, Ayaz nəyin bahasına olursa-olsun Qarabağın mənfur düşmən tapdağından azad olunması məqsədilə ordu sıralarına yollanır. Əsgərliyə cəbhə xəttində başlayan Ayaz vətən qarşısında olan müqəddəs borcunu şərəflə yerinə yetirir.

Cəsurluğu, çevikliyi, dosta qarşı sədaqəti ilə hərbi hissədə hamının sevimlisinə çevrilən Ayazın hərbi xidmət müddəti bitsə də, düşməndən hələ qisasını ala bilməmişdi. Bu səbəbdən hərbçi olmaq qərarına gəlir. 2017-ci ildə Azərbaycan Daxili Qoşunlarının Xüsusi Təyinatlı dəstələrinin birində müddətdən artıq hərbi xidmət edir. Çox keçmədən 2020-ci ilin 27 sentyabrında İkinci Qarabağ müharibəsi başlayır və Ayaz əlinə silah alıb mərdliklə düşmənə qarşı vuruşmağa başlayır. Qeyri-bərabər döyüşlərdə neçə-neçə erməni əsgərini məhv edən Ayaz oktyabrın 3-də Cəbrayılda döyüş zamanı şəhidlik zirvəsinə ucalır.